| Su şəbəkəsinə qoşulma xidməti sahəsində tənzimləyici çərçivənin hazırlıq səviyyəsinin təhlili | | | |
|---|---|---|---|
| Suallar | Cavablar | Cavabların əsası və ya istinad edilən qanunvericilik aktları | Linklər |
| ➢ Su sektoruna baxan tənzimləyici qurum varmı? (Bəli/Xeyr) | ✓ Bəli | Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi, su ehtiyatlarından səmərəli istifadə edilməsi, torpaqların meliorasiya və irriqasiya işlərinin təşkilinin yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 30.03.2023-cü il tarixli 2074 nömrəli fərmanı imzalanmışdır. Fərmana əsasən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin əsasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yaradılmış, "Azərsu" ASC və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC Agentliyin tabeliyinə verilmişdir. Agentlik Azərbaycan Respublikasında suyun mənbədən götürülməsi, emalı, nəqli və təchizatı sahəsində fəaliyyətin təşkilini təmin edən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarını, eləcə də bu sahədə xidmətlər göstərilməsini təşkil edən, balansında olan su təsərrüfatı obyektlərinin texniki vəziyyətinə müntəzəm nəzarəti həyata keçirən, Azərbaycan Respublikasında yerüstü, yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqini aparan, bu sahələrdə vahid dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. | https://e-qanun.az/framework/53813 |

| | | | |
|---|---|---|---|
| Tənzimləyici çərçivəyə əsasən, su tənzimləyici qurumun tarifləri təsdiq etməkdə rolu nədir? Birini seçin:<br>• Tənzimləyici su tariflərini təsdiqləmək üçün yekun qərar qəbuletmə roluna malikdir.<br>• Tənzimləyici su tariflərini təsdiqləmək üçün qərar qəbuletmə rolunu digər dövlət qurumu və ya nazirliklə bölüşür.<br>• Tənzimləyici su tariflərinin müəyyən edilməsində və ya təsdiqində məsləhətçi rolunu oynayır.<br>• Tənzimləyici su tariflərinin müəyyən edilməsində və ya təsdiqində iştirak etmir. | ✓ Tənzimləyici orqan su tariflərinə dair qərarların qəbul edilməsində və ya təsdiqlənməsində məsləhətçi rolunu oynayır<br>✓ Tənzimləyici orqan su tariflərinə dair qərarların qəbul edilməsində və ya təsdiqlənməsində iştirak etmir. | Belə ki, “Tənzimlənən qiymətlər haqqında” Azərbaycan Respublikası Qanununa əsasən tənzimlənən qiymətlər təbii inhisar, dövlət inhisarı və inhisarçı subyektlərin məhsullarına (mallarına, işlərinə, xidmətlərinə), habelə Azərbaycan Respublikasının qanunvericilik aktları ilə qiymətləri dövlət tənzimlənməsinə aid edilmiş digər məhsullara (mallara, işlərə, xidmətlərə) tətdiq edilir. İstehlakçılara göstərilən su təchizatı və tullantı sularının axıdılması xidmətlərinin tarifləri Azərbaycan Respublikası Tarif Şurasının "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sudan istifadə və tullantı sularının axıdılması xidmətləri üzrə istehlakçı qruplarının tariflərinin və təsnifatının təsdiq edilməsi barədə” qərarı ilə tənzimlənir.<br>Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28.09.2005-ci il tarixli 178№-li Qərarı ilə içməli və texniki su “Qiymətləri(tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı”na aid edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 26.12.2005-ci il tarixli 341№-li Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə”yə görə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla, dövlət tənzimlənməsi tətbiq edilən qiymətlərin (tariflərin), xidmət haqlarının, yığımların dövlət tənzimlənməsini həyata keçirən kollegial icra hakimiyyəti orqanıdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30.12.2005-ci il tarixli 247№-li Qərarı ilə təsdiq edilmiş “Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları”na əsasən qiymətləri dövlət tərəfindən tənzimlənən malları (xidmətləri) istehsal edən (xidmət göstərən) subyektlər hər il Qaydalarla təsdiq edilmiş formalarda hesabat materiallarını Tarif (qiymət) Şurasına təqdim etməklə yanaşı, qiymətlərin tənzimlənməsi üçün müvafiq müraciət, əsaslandırıcı məlumat və arayışı təqdim edə bilərlər. | http://tariff.gov.az/documents/NK-1.pdf<br><br>http://tariff.gov.az/documents/F-2.pdf<br><br>http://tariff.gov.az/documents/NK-2.pdf |

| | | | |
|---|---|---|---|
| Tənzimləyici çərçivəyə əsasən, su tənzimləyici qurumun su xidmətlərinin keyfiyyəti və etibarlılığının monitorinqində rolu nədir? Bütün uyğun cavabları seçin:<br>• Tənzimləyici qurum xidmət keyfiyyətini və su xidmətlərinin etibarlılığını təmin etmək üçün performans (məhsuldarlıq) standartlarını müəyyən edir<br>• Tənzimləyici qurum xidmət keyfiyyətini və su xidmətlərinin etibarlılığını təmin etmək üçün performans (məhsuldarlıq) standartlarına əməl olunmasını monitorinq edir | ✓ Tənzimləyici qurum xidmət keyfiyyətini və su xidmətlərinin etibarlılığını təmin etmək üçün performans (məhsuldarlıq) standartlarını müəyyən edir<br>✓ Tənzimləyici qurum xidmət keyfiyyətini və su xidmətlərinin etibarlılığını təmin etmək üçün performans (məhsuldarlıq) standartlarına əməl olunmasını monitorinq edir | | |
| ➢ Tənzimləyici çərçivəyə əsasən, tənzimləyici qurum təsdiq olunmuş büdcəyə nəzarət edir və xərclərlə bağlı qərar qəbuletmə səlahiyyətinə malikdirmi? (Bəli/Xeyr) | ✓ Bəli. | | |
| ➢ Tənzimləyici qaydalarda (məsələn, elektrik dirəklərinin, yerüstü və yeraltı kabellərin, su kəmərlərinin, telefon naqillərinin çəkilişi üçün) birgə planlaşdırma və tikintinin tələb olunması ilə bağlı müddəalar, o cümlədən ümumi qazıntı icazələri, birgə qazıntı və ya “bir dəfə qazma” siyasəti ilə bağlı müddəalar varmı? (Bəli/Xeyr) | ✓ Bəli | “Avtomobil yollarının tikintisi, yenidən qurulması və təmiri işlərinin avtomobil yollarının bilavasitə altında və ya yolların kənarı boyunca yerləşən mövcud mühəndis-kommunikasiya təminatı sistemlərini istismar edən qurumların işləri ilə uzlaşdırılması Qaydası”nın təsdiq edilməsi haqqında” AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN 8 fevral 2017-ci il tarixli, 44 nömrəli QƏRARI ilə təsdiq edilmişdir. | https://e-qanun.az/framework/34835 |
| ➢ Tənzimləyici çərçivədə su xidmətlərinə qoşulmalarla məşğul olan qurumlar üçün təsdiqləmələrlə bağlı qərarların qəbulu və ya razılıqların verilməsi üçün vaxt məhdudiyyətləri müəyyən edən müddəalar varmı? (Bəli/Xeyr) | ✓ Bəli | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 avqust 2014-cü il tarixli, 275 nömrəli qərarı ilə təsdiq edilmiş “İstehlakçıların su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün texniki şərtlərin verilməsi və qoşulması Qaydaları”nın 2.13- cü bəndinə əsasən Bu Qaydaların 2.20-ci bəndində nəzərdə tutulmuş imtina halları olmadıqda, sorğunun və ya ərizənin daxil olduğu gündən sonra 10 (on) iş günü müddətində STKM texniki şərtlərin verilməsini təmin etməlidir.<br>2.23-cü bəndinə əsasən tikinti obyektləri inşa edilərkən texniki şərtlərdən kənara çıxma zərurəti yarandıqda, sifarişçi bilavasitə öz ərizəsi və ya tikintiyə icazə verən orqanın (qurumun) sorğusu əsasında texniki şərtləri vermiş STKM ilə həmin dəyişikliyi razılaşdırmalıdır. Bu zaman STKM ərizə və ya sorğu daxil olduğu gündən 10 (on) iş günü müddətində texniki şərtlərdə edilmiş dəyişikliklərə rəsmi münasibətini bildirməlidir. | https://e-qanun.az/framework/28266 |
| ➢ Tənzimləyici çərçivədə su təchizatında fasilələrin məhdudlaşdırılması məqsədilə maliyyə çəkindirmə və ya həvəsləndirmə mexanizmləri (məsələn, kommunal xidmətlər tərəfindən ödənilən kompensasiyalar və ya cərimələr, yaxud etibarlı xidmət təminatına görə mükafatlar) nəzərdə tutulubmu? (Bəli/Xeyr) | ✓ Bəli | “Su təchizatı və tullantı suları haqqında” Qanununun 20-ci maddəsinin 3-cü bəndinə əsasən əhalinin alternativ su təchizatı ilə əlaqədar, mərkəzləşdirilmiş su təchizatının qiymətindən əlavə xərclər müvafiq büdcə vəsaiti hesabına su təchizatı müəssisəsinə ödənilir. Qanunun 29-cu maddəsinin 4-cü bəndinə əsasən su təchizatının dayandırılması və ya məhdudlaşdırılması haqqında məlumat bu maddəyə uyğun olaraq elan olunduqda su təchizatı müəssisəsi tərəfindən bu müddət ərzində alınacaq ödəniş əsaslandırılmış şəkildə ixtisar olunmalıdır. Əgər avans ödəmələri tutulubsa, onda bu məbləğ bundan sonrakı dövrdə tutulacaq ödəmələrə aid edilir | https://e-qanun.az/framework/74 |

| | | | |
|---|---|---|---|
| ➢ "Bəli" cavabı verilibsə, mövcud maliyyə çəkindirmə və ya həvəsləndirmə mexanizmlərinin növlərini tərif edin:<br>• Kommunal xidmətlər tərəfindən ödənilən cərimələr.<br>• Müştəriyə ödənilən kompensasiyalar<br>• Müsbət həvəsləndirmə mexanizmləri (məsələn, mükafatlar). | ✓ Müştəriyə ödənilən kompensasiyalar | | |
| ➢ Tənzimləyici çərçivə su xətlərinin quraşdırılması işlərini icra edən tərəf üçün kvalifikasiya tələbləri müəyyən edirmi? (Bəli/Xeyr) | ✓ Bəli | Su təchizatı üzrə tikinti işlərinin icra edilməsinə dair ixtisas tələbləri həmin layihə üzrə hazırlanmış Tender Şərtlər Toplusunda öz əksini tapır və şirkətlərin tenderə cəlb olunması bu əsaslarla aparılır.<br>Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 51-ci maddəsinə əsasən, tikinti fəaliyyətinin peşə sahələrindən biri olan tikinti-quraşdırma, o cümlədən su təchizatı ilə bağlı tikinti-quraşdırma işlərinə dair xüsusi tələblər texniki normativ hüquqi aktlar əsasında müəyyənləşdirilir. Məcəllənin 52.2-ci maddəsinə görə, peşəkarlıq sertifikatı şəxsin peşəkarlıq səviyyəsinin müvafiq standartda, texniki reqlamentdə və digər normativ hüquqi aktda müəyyən olunmuş tələblərə uyğunluğunu təsbit edən sənəddir. Peşəkarlıq sertifikatları "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, uyğunluğu qiymətləndirən qurumlar tərəfindən verilir. Tikintiyə dövlət nəzarəti zamanı müvafiq peşə sahələrinə aid işlərin peşəkarlıq sertifikatına malik şəxslər tərəfindən yerinə yetirilməsi də yoxlanılır.<br>Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 dekabr tarixli 474 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə və kvalifikasiya standartının hazırlanması, yenidən hazırlanması, təsdiq edilməsi, qeydiyyatının aparılması və müddətinin uzadılması Qaydaları"na uyğun olaraq, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində təsis edilmiş müxtəlif sahə komissiyaları, o cümlədən Elektrik enerjisi, qaz, hava, su, buxar təchizatı və tullantıların təmizlənməsi sahələrində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyası tərəfindən peşə və kvalifikasiya standartları (missal üçün, su təchizatı və kanalizasiya işləri üzrə texnik peşəsi üçün) təsdiq edilərək, Peşə və Kvalifikasiya Standartlarının Reyestrinə daxil edilmişdir.<br>Eyni zamanda Su təchizatı üzrə tikinti işlərinin icra edilməsinə dair ixtisas tələbləri həmin layihə üzrə hazırlanmış Tender Şərtlər Toplusunda öz əksini tapır və şirkətlərin tenderə cəlb olunması bu əsaslarla aparılır. | https://www.e-qanun.az/framework/46958<br><br>https://e-qanun.az/framework/43855<br><br>https://publicservices.mlspp.gov.az:8084/ProfessionStands/?fbclid=IwAR3hiVhnZaHhzuoM4haezTEBhRXh_2e2Jr3iUqF5LHperZBFaj3N1gRJ0WY#page-3 |

| | | | |
|---|---|---|---|
| ➢ "Bəli" cavabı verilibsə, tətbiq edilən bütün kvalifikasiya tələblərini işarələyin:<br>• Minimum iş təcrübəsi illərinin sayı<br>• Təhsil kvalifikasiyası (məsələn, müvafiq sahə üzrə universitet təhsili dərəcəsi)<br>• Milli Mühəndislər Birliyinin Cavabiyyatdan keçmiş üzvü<br>• Kvalifikasiya imtahanından keçmək | ✅ Minimum iş təcrübəsi illərinin sayı<br>✅ Təhsil kvalifikasiyası (məsələn, müvafiq sahə üzrə universitet təhsili dərəcəsi)<br>✅ Milli Mühəndislər Birliyinin Cavabiyyatdan keçmiş üzvü | | |
| ➢ Qanun daxili su qurğularının lisenziyalı mütəxəssis/şirkət tərəfindən quraşdırılmasını tələb edirmi? (Bəli/Xeyr) | ✅ Bəli. | Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 48-ci maddəsinə əsasən tikintisinə icazə tələb olunan tikinti obyektlərinin, habelə məlumatlandırma icraatı qaydasında tikilməsi nəzərdə tutulan tikinti obyektlərinin layihələri layihəçi tərəfindən hazırlanır. Yalnız Azərbaycan Respublikasında Cavabiyyatdan keçmiş və layihələndirmə fəaliyyəti ilə məşğul olmaq üçün xüsusi razılıq (lisenziya) almış hüquqi və ya fiziki şəxslər layihəçi ola bilərlər. Həmçinin 49-cu maddəsinə əsasən Azərbaycan Respublikasında Cavabiyyatdan keçmiş və tikinti fəaliyyəti ilə məşğul olmaq üçün xüsusi razılıq (lisenziya) almış hüquqi və ya fiziki şəxslər podratçı ola bilərlər. | https://e-qanun.az/framework/46958 |
| ➢ Qanun daxili su qurğularını quraşdıran şirkətin quraşdırmanın keyfiyyətini yoxlamasını/təsdiqləməsini tələb edirmi? (Bəli/Xeyr) | ✅ Bəli. | Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 98-ci maddəsinə əsasən tikintiyə texniki nəzarət sifarişçi tərəfindən təmin edilir və müvafiq peşə sertifikatına malik şəxslər tərəfindən həyata keçirilir | https://e-qanun.az/framework/46958 |
| ➢ Qanun daxili su qurğularının keyfiyyətini təmin etmək üçün üçüncü tərəf tərəfindən son yoxlamanın aparılmasını tələb edirmi? (Bəli/Xeyr) | 🚫 Xeyr | Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 noyabr tarixli 349 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi " Qaydalarının 2.11-ci bəndinə əsasən tikintisinə icazə verilmiş obyektlərə dövlət nəzarəti hər bir tikinti obyekti üçün Müfəttişlik tərəfindən "Tikintidə Dövlət Nəzarəti Jurnalı" (Əlavə) açılmaqla aparılır. Qaydaların 2.12-ci tikintisinə icazə tələb olunan, sahəsi və həcmi kiçik (bir mərtəbəsinin sahəsi 150 kvadratmetrdən, tikintinin ümumi həcmi isə 1200 kubmetrdən artıq olmayan), aşırımlarının uzunluğu 6 metrdən böyük olmayan birmərtəbəli və ikimərtəbəli iaşə, ticarət, sosial, təsərrüfat təyinatlı obyektlərin, habelə Məcəllənin 89.1.1-ci, 89.1.3-cü və 89.1.7-ci maddələrində nəzərdə tutulan tikinti obyektlərinin, eləcə də məhəlledaxili yolların, kommunikasiya (elektrik, qaz, su, kanalizasiya və rabitə) xətlərinin tikintisinə başlamaq üçün "Tikintidə Dövlət Nəzarəti Jurnalı" açılmır. | https://e-qanun.az/framework/35193 |
| ➢ Qanun xarici su qurğularının lisenziyalı mütəxəssis/şirkət tərəfindən quraşdırılmasını tələb edirmi? (Bəli/Xeyr) | ✅ Bəli. | Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 48-ci maddəsinə əsasən tikintisinə icazə tələb olunan tikinti obyektlərinin, habelə məlumatlandırma icraatı qaydasında tikilməsi nəzərdə tutulan tikinti obyektlərinin layihələri layihəçi tərəfindən hazırlanır. Yalnız Azərbaycan Respublikasında Cavabiyyatdan keçmiş və layihələndirmə fəaliyyəti ilə məşğul olmaq üçün xüsusi razılıq (lisenziya) almış hüquqi və ya fiziki şəxslər layihəçi ola bilərlər. Həmçinin 49-cu maddəsinə əsasən Azərbaycan Respublikasında Cavabiyyatdan keçmiş və tikinti fəaliyyəti ilə məşğul olmaq üçün xüsusi razılıq (lisenziya) almış hüquqi və ya fiziki şəxslər podratçı ola bilərlər. | https://e-qanun.az/framework/46958 |

| | | | |
|---|---|---|---|
| ➢ Qanun xarici su qurğularını quraşdıran şirkətin quraşdırmanın keyfiyyətini yoxlamasını/təsdiqləməsini tələb edirmi? (Bəli/Xeyr) | ✓ Bəli. | Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 98-ci maddəsinə əsasən tikintiyə texniki nəzarət sifarişçi tərəfindən təmin edilir və müvafiq peşə sertifikatına malik şəxslər tərəfindən həyata keçirilir | https://e-qanun.az/framework/46958 |
| ➢ Qanun xarici su qurğularının keyfiyyətini təmin etmək üçün üçüncü tərəf tərəfindən son yoxlamanın aparılmasını tələb edirmi? (Bəli/Xeyr) | ⊘ Xeyr | Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 noyabr tarixli 349 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi “ Qaydalarının 2.11-ci bəndinə əsasən tikintisinə icazə verilmiş obyektlərə dövlət nəzarəti hər bir tikinti obyekti üçün Müfəttişlik tərəfindən “Tikintidə Dövlət Nəzarəti Jurnalı” (Əlavə) açılmaqla aparılır. Qaydaların 2.12-ci tikintisinə icazə tələb olunan, sahəsi və həcmi kiçik (bir mərtəbəsinin sahəsi 150 kvadratmetrdən, tikintinin ümumi həcmi isə 1200 kubmetrdən artıq olmayan), aşırımlarının uzunluğu 6 metrdən böyük olmayan birmərtəbəli və ikimərtəbəli iaşə, ticarət, sosial, təsərrüfat təyinatlı obyektlərin, habelə Məcəllənin 89.1.1-ci, 89.1.3-cü və 89.1.7-ci maddələrində nəzərdə tutulan tikinti obyektlərinin, eləcə də məhəllədaxili yolların, kommunikasiya (elektrik, qaz, su, kanalizasiya və rabitə) xətlərinin tikintisinə başlamaq üçün “Tikintidə Dövlət Nəzarəti Jurnalı” açılmır. | https://e-qanun.az/framework/35193 |
| • Su qurğusunun quraşdırılmasından sonra qüsurlar aşkar olunduqda, qanunvericiliyə əsasən, layihə sahibi vəya investordan başqa hər hansı tərəf məsuliyyət daşıya bilərmi? (Bəli/Xeyr) | ✓ Bəli. | İcraçı təşkilat müvafiq müqavilənin müddəalarına və Mülki Məcəlləyə əsasən icra etdiyi işlərə görə məsliyyət daşıyır | |
| ➢ “Bəli” cavabı verilibsə, su xidmətlərinə qoşulmada iştirak edən və məsuliyyət daşıya biləcək bütün tərəfləri seçin:<br>• Qoşulma planlarını hazırlamış mühəndis/şirkət.<br>• Texniki yoxlamaları həyata keçirmiş mütəxəssis və ya qurum.<br>• Quraşdırma işlərini icra etmiş mütəxəssis və ya şirkət. | ✓ Quraşdırma işlərini icra etmiş mütəxəssis və ya şirkət. | | |
| ➢ Qanun kommunal xidmətlərin təmiz su təchiz etməsini təmin etmək üçün suyun keyfiyyətinə dair tələblər və standartlar müəyyən edirmi? Suyun keyfiyyəti standartlarına misal olaraq emal olunmuş suyun estetik, mikrobioloji parametrləri, fiziki-kimyəvi və radioloji xüsusiyyətlərinə dair testlərin aparılması tələblərini Cavab etmək olar. (Bəli/Xeyr) | ✓ Bəli. | 2023-cü ilin aprel ayından etibarən AZS 929:2023 “İçməli su. Gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət” dövlət standartı təsdiq edilmişdir (2023-cü ilə qədər isə DÜİST 2874-82 standartı qüvvədə idi). Bu standart özündə 110 sayda keyfiyyət göstəricisini (orqanoleptik, fiziki-kimyəvi, istehsalat göstəriciləri, mikrobioloji göstəricilər və radioloji) əhatə edir. Eyni zamanda, suyun keyfiyyətinin izlənməsi, müayinə saylarını, dövrlüyünü, suyun təhlükəsizliyi ilə bağlı bir sıra qaydaları özündə əks edir. | https://azersu.az/az/static/8/link/7 |
| ➢ “Bəli” cavabı verilibsə, son istifadəçi tərəfindən istehlak olunan suyun keyfiyyət standartlarının təmin edildiyinə əmin olmaq üçün tətbiq olunan testləri (məsələn, istehlakçı kranından götürülmüş nümunələr üzrə aparılan testlər) göstərin:<br>• Estetik testlərin (məsələn: dad, qoxu, görünüş) aparılması tələbi | ✓ Estetik testlərin (məsələn: dad, qoxu, görünüş) aparılması tələbi<br>✓ Mikrobioloji parametrlər üzrə testlərin aparılması tələbi<br>✓ Fiziki-kimyəvi testlərin aparılması tələbi | Səhiyyə Nazirliyinin “Respublika Gigiyena və Epidemiologiya Mərkəzi” publik hüquqi şəxsi ilə razılaşdırılmış plana əsasən, “İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti”nin Mərkəzi Laboratoriyası, Ceyranbatan və 9 ədəd Regional kimyəvi-bakterioloji laboratoriyaları tərəfindən mütəmadi nümunələr götürülür (2 saatdan bir, gündəlik, aylıq, rüblük və sair). Nümunələr xidmət sahəsi üzrə mənbədən istehlakçıya qədər nəzarəti təmin edir. Nəzarət edilən göstəricilər – orqanoleptik, | |

| | | | |
|---|---|---|---|
| • Mikrobioloji parametrlər üzrə testlərin aparılması tələbi<br>• Fiziki-kimyəvi testlərin aparılması tələbi<br>• Radioloji testlərin aparılması tələbi | | istehsalat göstəriciləri, fiziki-kimyəvi və mikrobioloji göstəricilərdir. | |
| ➢ Su keyfiyyəti standartlarına əməl olunmasını təşviq etmək məqsədilə su təchizatçılarına qarşı çəkindirmə və ya məcburetmə mexanizimləri (məsələn, cərimələr və ya cəzalar) tətbiq edilirmi? | ✓ Bəli. | Səhiyyə Nazirliyinin "Respublika Gigiyena və Epidemiologiya Mərkəzi" publik hüquqi şəxsi "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti"nin üzərində nəzarət aparır (AZS 929:2023 "İçməli su. Gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" dövlət standartının tələblərinə, "Su təchizatı və tullantı suları haqqında", "Sanitar-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanunlarının tələbinə əsasən cərimə tətbiq edir. | https://azersu.az/az/static/8/link/7 |
| ➢ "Bəli" cavabı verilibsə, su keyfiyyəti standartlarına əməl olunmasını təmin etmək üçün tətbiq olunan məcburetmə mexanizimlərini göstərin:<br>• Cərimələr və ya cəzalar<br>• Müvafiq qurumlar tərəfindən son istifadəçinin istehlak etdiyi suyun keyfiyyəti standartlarına dair təsadüfi qaydada testlər aparılması<br>• Hesabat tələbləri - kommunal xidmət təchizatçıları su keyfiyyəti standartlarına riayət olunması barədə tənzimləyici quruma hesabat verirlər<br>• Su keyfiyyəti standartlarına riayət olunmaması hallarının ictimaiyyətə açıqlanması | ✓ Cərimələr və ya cəzalar<br>✓ Müvafiq qurumlar tərəfindən son istifadəçinin istehlak etdiyi suyun keyfiyyəti standartlarına dair təsadüfi qaydada testlər aparılması | Səhiyyə Nazirliyinin "Respublika Gigiyena və Epidemiologiya Mərkəzi" publik hüquqi şəxsi mütəmadi olaraq müstəqil şəkildə su təchizatı sistemlərinin müxtəlif nöqtələrindən su nümunələri götürür, kənaraçıxma hallarında rəsmi xəbərdarlıq "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ-nə ünvanlayır. Bəzi hallarda birgə monitorinqlər keçirilir və müayinə nəticələri müqaisə edilir. Müəyyən hallarda isə birbaşa cərimə tətbiq edir. | |
| ➢ Qanunvericilik suya qənaəti təşviq etmək məqsədilə kommunal xidmət təchizatçıları üçün sudan səmərəli istifadə üzrə ətraf mühit standartları və tələblərini müəyyən edirmi? (Bəli/Xeyr) | ⊘ Xeyr | Sudan səmərəli istifadə üzrə ətraf mühit standartlarına suya qənaət hədəfləri, biznes müştərilərinin obyektlərində quraşdırılmış smart sayğacların sayı üzrə hədəflər, biznes müştərilərinə pulsuz smart sayğacların verilməsi daxildir. Qanunvericilik üzrə suya qənaət təşviq etmək məqsədi ilə kommunal xidmət təchizatçıları üçün sudan səmərəli istifadə üzrə ətraf mühit standartları hal-hazırda mövcud deyil. Sözügedən standart və tələblərin hazırlanması ilə bağlı məsələ "Ekoloji Məslələr üzrə" işçi qrupun iclaslarında müzakirə olunur. | |
| ➢ Su təchizatının səmərəliliyi standartlarına əməl olunmasını təşviq etmək məqsədilə kommunal xidmət təchizatçılarına qarşı çəkindirmə və ya məcburetmə mexanizimləri (məsələn, cərimələr və ya cəzalar) tətbiq edilirmi? (Bəli/Xeyr) | ✓ Bəli. | "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" AR Qanununun 8-ci maddəsinə görə bazarda hökmran mövqe tutan istehsalçı və ya icraçı (onun nizamnamə fəaliyyətindən, yaxud istehsal imkanlarından kənara çıxdığını sübut etdiyi hallar istisna olmaqla) istehlakçı ilə işlərin icra edilməsi və xidmət göstərilməsi üçün qeyri-bərabər şərt təklif etmədən müqavilə bağlamağa borcludur. Bu halda o, öz istehsalat, yaxud digər təsərrüfat fəaliyyətini elə təşkil etməlidir ki, əhalinin ehtiyacları lazımi səviyyədə və fasiləsiz təmin edilsin. İcraçının əsassız olaraq, müqavilə bağlamaqdan imtina etməsi nəticəsində o, işlərin yerinə yetirilməsindən və xidmətlərin göstərilməməsindən istehlakçıya dəyən ziyanın əvəzini ödəməyə borcludur.<br>"Su təchizatı və tullantı suları haqqında" AR Qanununun 29-cu maddəsinin 4-cü bəndinə əsasən su təchizatının | https://e-qanun.az/framework/9479<br><br>https://e-qanun.az/framework/74 |

| | | | |
|---|---|---|---|
| | | dayandırılması və ya məhdudlaşdırılması haqqında məlumat bu maddəyə uyğun olaraq elan olunduqda su təchizatı müəssisəsi tərəfindən bu müddət ərzində alınacaq ödəniş əsaslandırılmış şəkildə ixtisar olunmalıdır. Əgər avans ödəmələri tutulubsa, onda bu məbləğ bundan sonrakı dövrdə tutulacaq ödəmələrə aid edilir. | |
| ➢ "Bəli" cavabı verilibsə, su təchizatının səmərəliliyi standartlarına əməl olunmasını təşviq etmək üçün tətbiq olunan məcburetmə mexanizimlərini göstərin: *(bal hesablanmır)*<br>• Cərimələr və ya cəzalar<br>• Müvafiq qurumlar tərəfindən yoxlamalar keçirilməsi<br>• Hesabat tələbləri - kommunal xidmət təchizatçıları su təchizatının səmərəliliyi standartlarına riayət olunması barədə tənzimləyici quruma hesabat verirlər<br>• Su təchizatının səmərəliliyi standartlarına riayət olunmaması hallarının ictimaiyyətə açıqlanması | ✓ Cərimələr və ya cəzalar | | |
| ➢ Tələb tərəfinin su idarəçiliyi təcrübələrinə riayət etməsini təşviq edən hər hansı tələblər və proqramlar mövcuddurmu? (Bəli/Xeyr) | ⊘ Xeyr | Tələb idarəçiliyi təcrübələrinə dair standartlara misal olaraq biznes müəssisələrinin suya qənaət edici cihazlar quraşdırması tələbini, suya qənaət hədəflərinə əməl olunması tələbini, suyun səmərəli istehlakına dair etiketləşdirmə tələblərini Cavab etmək olar. | |
| ➢ Tələb tərəfinin su idarəçiliyi təcrübələrinə riayət etməsini təmin etməyə yönəlmiş hər hansı çəkindirmə və ya məcburetmə mexanizmləri (məsələn, cərimələr, cəzalar, həcmə görə su tariflərinin tətbiqi) mövcuddurmu? (Bəli/Xeyr) | ✓ Bəli. | Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 262-ci maddəsinin (Su obyektlərindən və sudan istifadə qaydalarının pozulması) 262.2.1-ci yarımbəndinə sudan istifadə etmə limitlərinə əməl edilməməsinə və 262.2.2-ci yarımbəndinə su ehtiyatlarından israfçılıqla istifadə edilməsinə görə fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min beş yüz manatadək məbləğdə cərimə edilir. | https://frameworks.e-qanun.az/0/c_c_24.html |
| ➢ "Bəli" cavabı verilibsə, tələb tərəfinin su idarəçiliyi təcrübələrinə riayət etməsini təmin etmək üçün tətbiq olunan məcburetmə mexanizmləri barədə təfərrüatları göstərin. Bütün uyğun cavabları seçin:<br>• Cərimələr və ya cəzalar<br>• Müvafiq qurumlar tərəfindən yoxlamalar keçirilməsi<br>• Hesabat tələbləri - biznes müəssisələri suya qənaət təcrübələrinə əməl olunması barədə tənzimləyici quruma hesabat verirlər<br>• Su israfçılığını azaltmaq üçün həcmə görə su tariflərinin tətbiqi | ✓ Cərimələr və ya cəzalar | | |

| | | | |
|---|---|---|---|
| ➢ Biznes müəssisələrinin suya qənaət təcrübələrini tətbiq etmələri üçün maliyyə stimulları mövcuddurmu? (Bəli/Xeyr) | ⊘ Xeyr | Biznes müəssisələrinin su tələbi idarəçiliyi təcrübələrini tətbiq etmələri üçün maliyyə stimullarına vergi güzəştləri, endirim/geri ödəmə proqramları, tarif stimulları, aşağı faizli kreditlər, suya qənaət edən cihazlara endirimlər daxildir. | |
| ➢ Biznes müəssisələrinin tələb tərəfi su idarəçiliyi təcrübələrini tətbiq etmələri üçün qeyri-maliyyə stimulları mövcuddurmu? (Bəli/Xeyr) | ⊘ Xeyr | Qeyri-maliyyə stimullarına nümunələr: ən səmərəli nəticələrə görə mükafatlar, biznes müəssisələri üçün su tələbi idarəçiliyi təcrübələri və texnoloji inkişaf barədə məlumatlar təmin edən məlumatlandırma proqramları, müəssisələrə su istifadəsini azaltmaq yollarını müəyyənləşdirməkdə kömək edən su auditləri. | |
| ➢ Tullantı sularının yerli kanalizasiya sisteminə atılmasını tənzimləyən müəyyən edilmiş qurum varmı? (Bəli/Xeyr) | ✓ Bəli. | Azərbaycan Respublikasının Prezidenti “Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında” 2023-cü il 17 noyabr tarixli Fərman imzalayıb.Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetməni təkmilləşdirmək, su ehtiyatlarından səmərəli istifadə etmək, torpaqların meliorasiyası və irriqasiyası işlərinin təşkilini yaxşılaşdırmaq məqsədilə qərara alınıb ki, Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin əsasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yaradılmışdır. İçməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarı, eləcə də bu sahədə xidmətlər göstərilməsinin təşkili Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının qanununa əsasən tənzimlənir. | https://president.az/az/articles/view/62242<br><br>https://e-qanun.az/framework/74 |
| ➢ Tullantı sularının su hövzələrinə və ya torpağa axıdılmazdan əvvəl emalı tələblərini (məsələn, atılma limitləri, atılma şərtləri) əhatə edən tullantı sularının emalı tələbləri mövcuddurmu? (Bəli/Xeyr) | ✓ Bəli. | Hal hazırda tullantı sular emal edildikdən sonra su hövzələrinə, relyefə axıdılması üçün tərkibindəki zərərli maddələrin yol verilən qatılıq həddləri 91/271 EEC direktivinə əsasən tənzimlənir. | |
| ➢ Tətbiq olunan tullantı sularının emalı tələblərini göstərin: (bal hesablanmır)<br>• Atma/axıdılma limitləri (axıntıların məhdudlaşdırılması)<br>• Atmadan/axıdılman əvvəl ilkin emal şərtləri<br>• Digər | ✓ Atmadan/axıdılman əvvəl ilkin emal şərtləri<br>✓ Digər | Hal hazırda tullantı sular emal edildikdən sonra su hövzələrinə, relyefə axıdılması üçün tərkibindəki zərərli maddələrin yol verilən qatılıq həddləri 91/271 EEC direktivinə əsasən, sənayə müəsisələrindən kanalizasiya şəbəkələrinə axıdılan tullantı suların isə tərkibindəki zərərli maddələrin yol verilən qatılıq hədləri daxili əmrə əsasən qaydalara uyğun olaraq tənzimlənir. O cümlədən, bu sənayə müəssisələrindən plana əsasən su nümunələri toplanılır, müayinələr icra edilir və zərərli maddələrin yol verilən qatılıq hədləri normativ sənədin tələblərini aşdığı təqdirdə müəssisəyə normadan artıq rüsum tətbiq edilir və təmizləyici qurğunun quraşdırılmasına dair tələblər irəli sürülür. Qaydalara əməl edilmədiyi təqdirdə qanunvericiliyə uyğun olraq məhdudiyyətlər tətbiq edilir.<br>Eyni zamanda cari il üzrə Tullantı suların emaldan öncə, emaldan sonra və tullantı suların təkrar istifadəsinə dair yeni qaydaların (standartın) işlənməsi üçün texniki komitə yaradılması işləri hüquqi müstəvidə davam edir. | |
| ➢ Tənzimləyici çərçivə tullantı sularından təkrar istifadə ilə bağlı qaydalar müəyyən edirmi (məsələn, təmizlənmiş suyun istifadəsi üçün təlimatlar, tullantı sularının keyfiyyəti limitləri və emal prosesi/növü)? (Bəli/Xeyr) | ⊘ Xeyr | Tullantı suların emaldan öncə, emaldan sonra və tullantı suların təkrar istifadəsinə dair yeni qaydaların (standartın) işlənməsi üçün texniki komitə yaradılması işləri hüquqi müstəvidə davam edir. | |

| | | | |
|---|---|---|---|
| ➢ Su xidmətlərinə yeni kommersiya məqsədli qoşulmalar üçün elektron qaydada müraciət etmək mümkündürmü? (Bəli/Xeyr) | ✓ Bəli. | | https://e-su.az/tex_shert_new |
| ➢ Su xidmətlərinə qoşulmaq üçün müraciəti onlayn izləmək mümkündürmü? (Bəli/Xeyr) | ✓ Bəli. | Hər bir mərhələ üzrə müraciətçiyə SMS və Email göndərilir, bununla bağlı “Elektron Su” portalından “Müraciətim hardadır” xidməti təqdim ediləcəkdir. | |
| ➢ Su xidmətlərinə yeni qoşulmalar üçün rüsumu elektron qaydada ödəmək mümkündürmü? (Bəli/Xeyr) | ✓ Bəli. | Post terminallar vasitəsilə və ya Ödəniş platformaları vasitəsilə qurumun hesabına köçürmə edilir. | |
| ➢ Aylıq su haqqını elektron qaydada ödəmək mümkündürmü? (Bəli/Xeyr) | ✓ Bəli. | | |
| ➢ Yeraltı xətlər kimi mövcud infrastruktur şəbəkələrinin müəyyənləşdirilməsinə imkan verən milli/yerli infrastruktur verilənlər bazası (məsələn, “qazmadan əvvəl zəng et” və ya GIS (Coğrafi İnformasiya Sistemləri)) mövcuddurmu?<br>• Elektrik, su və internet xidmətlərini də əhatə edən şəbəkə xətləri üçün ümumi verilənlər bazası<br>• Su şəbəkələri üçün verilənlər bazası (Su və tullantı su şəbəkəsi məlumatlarının toplandığı GİS sistemi tətbiq edilir) | ✓ Su şəbəkələri üçün verilənlər bazası (Su və tullantı su şəbəkəsi məlumatlarının toplandığı GİS sistemi tətbiq edilir) | | |
| ➢ Şəhərdə icra olunması planlaşdırılan kommunal şəbəkə işləri haqqında məlumatların yerləşdiyi onlayn platforma və ya veb-sayt varmı? (Bəli/Xeyr) | ✓ Bəli. | | https://azersu.az/az/static/53 |
| ➢ Qazıntı icazəsi müraciətləri və təsdiqləmələr üçün qurumlar arasında əməkdaşlığı təmin etmək məqsədilə aşağıdakılardan hansılar mövcuddur?<br>• Onlayn sistem<br>• Koordinasiya ilə məşğul olan qurum<br>• Digər koordinasiya mexanizmi | ✓ Onlayn sistem | “Elektron su” portalı vasitəsilə müraciətçinin ünvanından su şəbəkəsinə qoşulacağı məsafə arası trassa prossesdə iştirak edən digər qurumlar ilə razılaşdırılması portal üzərindən onlayn qaydada həyata keçirilir. | |
| ➢ Bizneslər üçün yeni su xidmətlərinə qoşulma tələbləri onlayn formatda mövcuddur? | ✓ Bəli. | | https://azersu.az/az/static/54/link |
| ➢ Onlayn rejimdə hansı qoşulma tələbləri dərc olunub?<br>• Tələb olunan sənədlər<br>• Tələb olunan prosedurlar<br>• Qoşulma xərci<br>• Nəzərdə tutulmuş qoşulma vaxtı standartları | ✓ Tələb olunan sənədlər<br>✓ Tələb olunan prosedurlar<br>✓ Qoşulma xərci<br>✓ Nəzərdə tutulmuş qoşulma vaxtı standartları | | |
| ➢ Cari su tarifləri onlayn əlçatandır? (Bəli/Xeyr) | ✓ Bəli. | | https://azersu.az/az/page/44 |
| ➢ Sənaye və ticarət müəssisələrinin su istehlakı sayğac vasitəsilə ölçülürmü? (Bəli/Xeyr) | ✓ Bəli. | | |
| ➢ Sənaye və ticarət müəssisələrinə hansı tarif tətbiq olunur?<br>• İstehlaka mütənasib düz xətti tarif<br>• İstehlakın artması ilə artan proqressiv tarif | ✓ İstehlaka mütənasib düz xətti tarif | | |

| | | | |
|---|---|---|---|
| (IBT)<br>• İstehlakın artması ilə azalan proqressiv tarif (DBT)<br>• Həcmə görə fərqlənən tarif<br>• Sabit aylıq qiymətlər | | | |
| ➢ Su tariflərinə dəyişikliklər haqqında ictimaiyyətə ən azı bir hesablaşma dövrü əvvəlcədən məlumat verilir? (məsələn, məlumatlar mətbuatda, qaydalarda və ya veb-saytda dərc edilir, məktublar, qaimələr, e-poçtlar, SMS-lər vasitəsilə göndərilir). (Bəli/Xeyr) | ✓ Bəli. | Su tariflərində dəyişikliklər haqqında ictimaiyyətin məlumatlandırılması məqsədilə mətbuatda, media və veb-saytlarda, qurumun internet səhifəsində dərc olunur. | https://azersu.az/az/page/44 |
| ➢ Son istifadəçilər üçün su tariflərinin səviyyəsini müəyyən edən formula ictimaiyyət üçün əlçatandır?<br>• Bəli, formula yalnız onlayn şəkildə dərc edilir<br>• Bəli, formula yalnız istehlakçı çekində dərc edilir<br>• Bəli, formula həm onlayn şəkildə, həm də istehlakçı çekində dərc edilir<br>• Xeyr, əlçatan deyil | ✓ Bəli, formula həm onlayn şəkildə, həm də istehlakçı çekində dərc edilir | | |
| ➢ Cari tullantı suyu tarifləri sənaye və kommersiya istehlakçıları üçün onlayn şəkildə əlçatandır? (Bəli/Xeyr) | ✓ Bəli. | Tullantı su tarifləri haqqında ictimaiyyətin məlumatlandırılması məqsədilə mətbuatda, media və veb-saytlarda, qurumun internet səhifəsində dərc olunur. | https://azersu.az/az/page/44 |
| ➢ Tullantı suyu tarifləri necə müəyyən edilir? Birini seçin:<br>Cəmi su qaiməsinin mütənasib hissəsi kimi<br>Sabit haqq kimi (su istehlakından asılı olmayaraq) | | Azərbaycan Respublikası Tarif Şurasının 30 Yanvar 2021-ci il tarixli 5 №-li Qərarı ("Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinin tariflərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2016-cı il 13 may tarixli 6 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında) ilə tənzimlənir | https://tariff.gov.az/tarifler/kommunal-odenisler?type=84 |
| ➢ Tullantı suyu tarifləri çirklənmə yükündən (yəni, bir müəssisə tərəfindən atılan tullantı sularının xüsusiyyətlərindən) asılı olaraq dəyişir? (Bəli/Xeyr) | ⊘ Xeyr | | |
| ➢ Planlaşdırılan su fasilələri haqqında məlumat ictimai təqdim olunur/müştərilərə bildirilir?<br>• İctimai təqdim olunur<br>• Müştərilərə bildirilir | ✓ İctimai təqdim olunur<br>✓ Müştərilərə bildirilir | Planlaşdırılan su fasilləri haqqında tv və radiolarda, xəbər portallarında, qurumun internet səhifəsində həm ictimaiyyət, həm də müştərilərə məlumatlar bildirilir. Bundan əlavə olaraq müştərilərə SMS bildiriş vasitəsilə məlumatlar göndərilir. | https://azersu.az/az/static/53 |
| ➢ Su təchizatı xidməti ilə bağlı şikayət etmək üçün istehlakçıları istiqamətləndirən hansı növ məlumatlar onlayn şəkildə mövcuddur?<br>• Şikayətləri idarə edən qurum haqqında məlumatlar<br>• Şikayət etmək üçün tələb olunan sənədlər və addımlar<br>• Şikayət mexanizminin meyarları/əhatə dairəsi (yəni, hansı məsələlər barədə şikayət edilə bilər) | ✓ Şikayətləri idarə edən qurum haqqında məlumatlar<br>✓ Şikayət etmək üçün tələb olunan sənədlər və addımlar<br>✓ Şikayət mexanizminin meyarları/əhatə dairəsi (yəni, hansı məsələlər barədə şikayət edilə bilər)<br>✓ Şikayət etmək üçün tələb olunan addımlar | | https://azersu.az/az/static/14 |

| | | | |
|---|---|---|---|
| • Şikayət etmək üçün tələb olunan addımlar | | | |
| ➢ Su təchizatının etibarlılığı ilə bağlı göstəricilər onlayn şəkildə ictimaiyyətə təqdim olunur? (Bəli/Xeyr) | ✓ Bəli. | | |
| ➢ Təchiz olunan suyun keyfiyyəti ilə bağlı göstəricilər onlayn şəkildə ictimaiyyətə təqdim olunur? (Bəli/Xeyr) | ✓ Bəli. | | |
| ➢ Su təchizatının ekoloji dayanıqlılığını izləmək üçün Əsas Fəaliyyət Göstəriciləri (ƏFG-lər) onlayn şəkildə əlçatandır? (Bəli/Xeyr) | ✓ Bəli. | Qurumun internet səhifəsində Əsas Fəaliyyt Göstəriciləri (ƏFG-lər) üçün bölmə yaradılmış və məlumatlar mütəmadi olaraq yenilənməkdədir. | https://azersu.az/az/static/54/link/31 |
| ➢ Su təchizatının etibarlılığı (məsələn, su xidmətinin davamlılığı və tezliyi) monitorinq edilirmi? (Bəli/Xeyr) | ✓ Bəli. | Həm 955 zəng mərkəzinə daxil olan zənglər, eyni zamanda vətəndaş müraciətləri əsasında su xidmətinin davamlılığının pozulması halları müşahidə edilməklə aradan qaldırılması istiamətində tədbirlər görülür. | |
| ➢ Su keyfiyyəti (məsələn, kimyəvi emaldan keçən suyun faizi, istifadəyə yararsız suyun faizi) monitorinq edilirmi? (Bəli/Xeyr) | ✓ Bəli. | Səhiyyə Nazirliyinin "Respublika Gigiyena və Epidemiologiya Mərkəzi" publik hüquqi şəxsi ilə razılaşdırılmış plana əsasən, "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti"nin Mərkəzi Laboratoriyası, Ceyranbatan və 9 ədəd Regional kimyəvi-bakterioloji laboratoriyaları tərəfindən mütəmadi nümunələr götürülür (2 saatdan bir, gündəlik, aylıq, rüblük və sair). Nümunələr xidmət sahəsi üzrə mənbədən istehlakçıya qədər nəzarəti təmin edir. Nəzarət edilən göstəricilər – orqanoleptik, istehsalat göstəriciləri, fiziki-kimyəvi və mikrobioloji göstəricilərdir. | https://azersu.az/az/static/8/link/7<br>https://azersu.az/az/static/8/link/8<br>https://azersu.az/az/static/8/link/10 |
| ➢ Su keyfiyyətinin monitorinqi üçün istifadə olunan parametrlər barədə məlumat verin:<br>• pH<br>• Biokimyəvi Oksigen Tələbatı<br>• Kimyəvi Oksigen Tələbatı<br>• Qurğuşun<br>• Digər | ✓ pH<br>✓ Biokimyəvi Oksigen Tələbatı<br>✓ Kimyəvi Oksigen Tələbatı<br>✓ Qurğuşun<br>✓ Digər | | |
| • Su təchizatının ekoloji dayanıqlılığını monitorinq etmək üçün Əsas Fəaliyyət Göstəriciləri (məsələn, su təmizləmə çöküntülərinin atılması, təkrar istifadə olunmuş tullantı sularının faizi) varmı? (Bəli/Xeyr) | ⊘ Xeyr | Ətraf mühitin idarəetmə sistemi tamamilə qurulduqdan sonra mövcud ola bilər. | |
| ➢ [Ən böyük şəhərdə] su kommunal xidmət müəssisəsi qadın sahibkarların müəssisə tərəfindən göstərilən xidmətlərin keyfiyyətini ölçmək üçün cins əsaslı müştəri sorğuları aparırmı? (Bəli/Xeyr) | ⊘ Xeyr | Cins əsaslı müştəri sorğularına misal olaraq istehlakçı məmnuniyyəti sorğusunda və ya şikayət formasında şəxsin cinsiyyətini soruşmağı cavab etmək olar. | |
| ➢ Hansı müştəri sorğusu məlumatları cins əsasında təsnif edilir? | ⊘ Xeyr | Müştəri sorğusu məlumatları cins əsasında təsnif olunmur. | |
| ➢ Bu sorğu məlumatları ən son təqvim ili (2022) üçün mövcuddurmu? | ⊘ Xeyr | | |
| ➢ Bu sorğu məlumatları anonimləşdirilir? | ⊘ Xeyr | | |
| ➢ Bu sorğu məlumatları onlayn şəkildə ictimaiyyətə təqdim olunur? | ⊘ Xeyr | | |

| | | | |
|---|---|---|---|
| ➢ Daxili su quraşdırma işləri təcrübədə adətən lisenziyalı peşəkar/şirkət tərəfindən həyata keçirilir? | ⊘ Xeyr | | |
| ➢ Daxili su quraşdırma işlərini yerinə yetirmiş podratçı/şirkət daxili quraşdırma işlərinin yoxlamasını keçirirmi / keyfiyyətini yoxlayırmı / müvafiq uyğunluq sertifikatı verirmi? (Bəli/Xeyr) | ⊘ Xeyr | | |
| ➢ Daxili su quraşdırma işlərinin keyfiyyətini və təhlükəsizliyini təmin etmək üçün təcrübədə üçüncü tərəf (quraşdırmanı yerinə yetirəndən başqa) tərəfindən keyfiyyət yoxlaması və ya yekun yoxlama aparılırmı? (Bəli/Xeyr) | ⊘ Xeyr | | |
| ➢ Xarici su quraşdırma işləri təcrübədə adətən lisenziyalı peşəkar/şirkət tərəfindən həyata keçirilir? (Bəli/Xeyr). | ✓ Bəli. | STTSAS-a xarici qoşulma işləri bu sahədə lisenziyası olan podratçı təşkilat tərəfindən həyata keçirilə bilər. | |
| ➢ Təcrübədə adətən xarici su quraşdırma işlərini həyata keçirən tərəfi Cavab edin. Birini seçin: (bal hesablanmır)<br>• Kommunal xidmət müəssisəsi<br>• Lisenziyalı özəl podratçı<br>• İstənilən mövcud özəl podratçı (lisenziyasız da ola bilər) | ✓ Kommunal xidmət müəssisəsi<br>✓ Lisenziyalı özəl podratçı | | |
| ➢ Xarici su quraşdırma işlərini yerinə yetirmiş lisenziyalı podratçı/şirkət xarici su quraşdırma işlərinin yoxlamasını keçirirmi / keyfiyyətini yoxlayırmı / müvafiq uyğunluq sertifikatı verirmi? (Bəli/Xeyr) | ✓ Bəli. | Tikinti quraşdırma işləri yekunlaşdıqdan sonra inşa olunmuş xarici su şəbəkəsinin yuyulub dezinfeksiya olunması (lisenziyalı təşkilat tərəfindən), hidravlik sınağının keçirilməsi təmin edilməklə müvafiq akt tərtib olunur. | |
| ➢ Xarici su quraşdırma işlərinin keyfiyyətini və təhlükəsizliyini təmin etmək üçün təcrübədə üçüncü tərəf (quraşdırmanı yerinə yetirəndən başqa) tərəfindən keyfiyyət yoxlaması və ya yekun yoxlama aparılırmı? (Bəli/Xeyr) | ⊘ Xeyr | | |
| ➢ Su təchizatında müştərilərin üzləşdiyi problemləri (məsələn, yanlış qaimə və ya qeyri-kafi su təchizatı) bildirmək üçün şikayət mexanizmi mövcuddurmu? (Bəli/Xeyr) | ✓ Bəli. | Müştərilərin üzləşdikləri problemləri bildirmək üçün şikayət mexanizmi mövcuddur. Belə ki, qurumun 955 "Çağrı Mərkəzi" 24 saat fəaliyyət göstərir. Sosial şəbəkələr və Whatsapp vasitəsilə yazılı şikayət etmək imkanları da mövcuddur. Bundan əlavə qurumun internet səhifəsi üzərindən şikayət etmək mexanizmi yaradılmışdır. | https://azersu.az/az/page/55<br><br>https://www.e-gov.az/az/services/read/3715/0 |
| ➢ Şikayətləri daha yüksək instansiyalarda araşdırmaq üçün su kommunal xidmət müəssisəsindən müstəqil bir şikayət mexanizmi mövcuddurmu? (Bəli/Xeyr) | ✓ Bəli. | Müştərilərin müəssisə ilə bağlı daha yüksək instansiyalara şikayət etmək hüququ vardır. Belə ki, Prezident Administrasiyası, Nazirlər Kabineti, Milli Məclis və digər aidiyyəti yüksək instansiyalara şikayət etmək mexanizmi mövcuddur. | |
| ➢ Su xidmətinə qoşulmanın əldə edilmə müddəti: Ərizə tarixindən xidmətin qəbul edildiyi tarixədək su xidmətinə qoşulmanın əldə edilməsi neçə gün çəkdi? | | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 iyun 2024-cü il tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması Qaydası" əsasən sifarişçinin tikinti obyektinin STTSAS-yə qoşulması onun müraciət etdiyi tarixdən 30 (otuz) gündən gec olmayaraq təmin edilməlidir. | https://nk.gov.az/uploads/doc/docs/667688f608681.pdf |
| ➢ Su təchizatının etibarlılığı: [Son bitmiş maliyyə ilini daxil edin] maliyyə ili ərzində bu | | Respublika ərazisində 2023-cü il ərzində orta hesabla istehlakçıya su təchizatının verilməsində yaranmış fasilənin | |

| | | | |
|---|---|---|---|
| müəssisə qeyri-kafi su təchizatı problemi ilə üzləşibmi? | | müddəti (SAIDI) 1.98 saat təşkil edib. Ötən il ərzində orta hesabla istehlakçılara su təchizatının verilməsində yaranmış fasilə sayı isə (SAIFI) 0.24 dəfə olub. | |